*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2024*
*Səh. 362-368*
https://doi.org/10.62837/2024.6.362

**KÖNÜL ELMAR ABDULRƏHIMOVA,**
***mail:konulabdulrehimova@gmail.com***
***Azərbaycan Respublikasının Prezidenti***
***yanında Dövlət İdarəçilik Akademiyası,***
***Dillər kafedrasının dosenti, f.f.d.***
***Ünvan: Azərbaycan, Bakı, Lermontov küçəsi, 74 AZ 1001***

# İNGİLİS ATALAR SÖZLƏRİNİN KEYFİYYƏT VƏ MÜQAYİSƏ BİLDİRƏN SİNTAKSEMLƏRİN FUNKSİONAL TƏHLİLİ

**Xülasə**

Dilçilikdə "sintaksem" termini 20-ci əsrin ikinci yarısından başlayaraq cümlənin komponentləri arasında mövcud əlaqələr əsasında bölünməz sintaktik vahid kimi qəbul edilmişdir. Sintaksemlərin funksional təhlilində sintaktik vahidlərin məzmun və formal (struktur) quruluşu nəzərə alınır.

Təqdim etdiyimiz məqalədə keyfiyyət və müqayisə bildirən sintaksemlərdən ibarət olan atalar sözləri üzərində araşdırma aparılır. Belə sintaksemlərin quruluşu keyfiyyət və müqayisə bildirən təyin və ismi xəbərin predikativ hissəsi ilə sifət və ya zərflərin müqayisə formaları ilə ifadə olunur. Bu ifadə vasitələri əyani şəkildə onların quruluşlu modellərində öz əksini tapır. Sintaksem modellərində isə cümlənin dərindəki qatında həmin sintaksemlərin sintaktik-semantik (sinsemantik) əlamətləri, onların leksik tutumu və distributiv cəhətləri araşdırılır. Məqalədə sintaksemlərin mənasına əsasən 3 geniş sinfə - substansiallıq, kvalifikativlik, prosessuallıq kateqori-yalarına daxil olan sintaksemlərin, xüsusilə kvalitativlik (keyfiyyət), komparativlik (müqayisə), stativlik (hal-vəziyyət) bildirən sinsemantik əlamətləri tədqiq edilir. Bu sinsemantik əlamətlər kvalifikativlik (təyin bildirən) sinfi çərçivəsində geniş yer tutur. Agentlik (hərəkətin icraçısı), keyfiyyət daşıyıcısı, hal-vəziyyət daşıyıcısı, obyektlik (tamamlıq mövqeyində), pronominallıq (əvəzliklə ifadə olunan) sinsemantik əlamətlər substansiallıq (substansiya, maddə, ad bildirən) sinfinə daxildir. Sintaksem təhlildə hərəkət, vəziyyət, modallıq, qavrayış, nitq bildirən feil-lərlə ifadə olunan sintaksemlər prosessuallıq (proses mənasında) sinfinə aiddir. Tədqiqat zamanı ingilis atalar sözlərində sintaksemlərin sinsemantik əlamətləri təkcə quruluş və sintaksem modelləri ilə deyil, onların mövcudluğunu dilçilik eksperimenti kimi tətbiq olunan transformasiya metodu, yəni atalar sözünü bütöv cümləyə çevirmək, yaxud ingilis dilinin daşıyıcısı tərəfindən işlədilən həmin atalar sözünün variantını seçmək vasitəsilə yoxlamaq mümkündür.

**Açar sözlər:** *sintaksem, kvalifikativlik (təyin bildirən), keyfiyyət (kvalitativlik), müqayisə (komparativlik), substansiallıq, prosessuallıq (proses bildirən), hərəkət (aksionallıq), distributiv xüsusiyyət*

Sintaksem termini XX əsrin ikinci yarısından başlayaraq dilin sintaktik səviyyəsində elementar funksional komponentlərin və onların arasında mövcud əlaqələrə əsasən məna və formal cəhətlərə malik bölünməz vahid kimi qəbul olunmuşdur. (Bu barədə bax: А.М.Мухин, Эксперимент и моделирование в лингвистике. Санкт-Петербург. «Наука»: 2004. с.3-6, А.М.Мухин. Функциональный синтаксис. Санкт-Петербург. Наука.1999, с.15-20) Cümlə quruluşuna əsasən geniş aspektdə sintaktik-semantik mənası ilə xüsusi əlamətləri özündə birləşdirən sintaksemlər ənənəvi dilçiliyə istinad edilməklə onun ardınca mübtəda və xəbər, eləcə də tamamlıq, təyin və zərflik kimi ikinci dərəcəli üzvlərin mövqelərində dəqiq və ətraflı vahid kimi çıxış edir. Sintaksem cümlənin üst quruluşunda modellərə uyğun birləşən cümlə komponentləri arasında sintaktik əlaqəyə girərək, cümlənin alt təbəqəsində, yaxud dərin quruluşunda ayrı-ayrı siniflərə aid sinsemantik mənaları kəsb edir. Sintaksemlər forma və məna bildirən əlamətləri ilə yanaşı cümlədə tutduğu mövqeyinə və bilavasitə distributiv xüsusiyyətlərinə görə fərqlənir. Sintaksemlərdə aşkar olunan ümumi və fərqli cəhətlər dilçilikdə tətbiq edilən eksperiment vasitəsilə araşdırılır və alınan nəticələr onların aid olduğu siniflərdə, yaxud kateqoriyalarda müəyyənləşdirilir. Buna görə də cümlə tərkibində sintaksemlərin özünəməxsus funksiyaları və müvafiq mövqeləri apardığımız eksperiment zamanı konkret göstərdiyimiz mənalar qiymətləndirilir.

Təqdim etdiyimiz məqalədə ingilis atalar sözlərində müqayisə bildirən sintaksemlərin sinsemantik əlamətləri araşdırılır. Son illərdə müqayisə bildirən ingilis atalar sözlərinin leksik, qrammatik kateqoriyaları, semantik quruluşunun təhlili, onlarda komparativliyin (ing. comparative – müqayisə) ifadə vasitələri barədə bir neçə elmi araşdırmalara rast gəlmək olur. (Е.Е. Алексеева, Сравнение в английских пословицах как грамматическая категория и стилистический прием: структурно-семантический анализ. Вестник МГПУ Серия «Филология. Теория языка. Языковое образование», 3 (51), стр.50-63;).

İngilis dilində sintaksemlər cümlə daxilində tutduqları mövqeyinə görə, əsas semantik əlamətlərdən ibarət olmaqla 3 geniş sinfə (və ya kateqoriyaya) aid olur: prosessuallıq, substansiallıq, kvalifikativlik. Prosessual sintaksemlər əsasən hərəkət, modallıq, vəziyyət, qavrayış və nitq bildirən feillərlə, substansial sintaksemlər isim və ya ad bildirən, substantivləşmiş nitq hissələri ilə ifadə olunur. Kvalifikativlik sinfinə daxil olan sintaksemlər keyfiyyət, tərz, zaman, məkan, səbəb, nəticə,müqayisə bildirən sifət və zərf kimi nitq hissələrindən, eləcə də sözönlü birləşmələrdən təşkil olunur. Bu 3 sinfə aid olan sintaksemlər bölünməz sintaktik vahid kimi ingilis atalar sözlərinin quruluşunda yaranan qanunauyğunluqlara əsaslanaraq bir-birilə əlaqəli şəkildə işlənir. Məsələn, kvalifikativ (ing. qualifying – təyin edən Qlf) sintaksemlər keyfiyyət (ing. qualitative – kvalitativ Qlt) və hal-vəziyyət (stative – stativ St) mənalarını daşıyan müvafiq modellər üzərində yaranır. Sintaksem təhlil zamanı ingilis atalar sözlərinin quruluş modeli və sintaksem modeli ilə vəhdət şəklində araşdırılır. Bununla bağlı aşağıdakı ingilis atalar sözlərini nəzərdən keçirək: A *good* husband makes a *good* wife (≈Pendiri dəri saxlar, arvadı əri.) (Məqalədə

seçilən misallar Abasquliyev T. İngilis atalar sözləri və onların Azərbayanca, rusca qarşılıqları. “Elm” nəşriyyatı, Bakı, 1981, 208 s. lüğətindən götürülmüşdür.)

Verilən atalar sözünün quruluş modeli eyni ardıcıllıqla tərtib olunur. Onların leksik tutumunu təşkil edən nitq hissələri də modellərdə ixtisarla göstərilir (ing.Adj – adjective sifət, N- noun isim, $V_{tr}$ – transitive verb təsirli feil). Sintaksem modellərdə isə cümlənin təyini mövqeyində yerləşən *good* sifəti kvalifikativlik (Qlf) sinfindən olan keyfiyyət (ing.quality kvalitativlik - Qlt) bildirən sintaktik-semantik əlamətləri əks olunur. Bu sintaksemin distributiv xüsusiyyəti ondan ibarətdir ki, cümlənin mübtədası mövqeyində işlədilən *husband* ismi substansiallıq sinfinə aid olan hərəkətin icraçısı (SbAg – agent icraçı) və keyfiyyət daşıyıcısı (SbQltAg – ing.Sb – substance; Qlt – having quality; keyfiyyət daşıyıcısı;) kimi əlamətlərə malikdir; *makes* feili prosessuallıq sinfindən hərəkət (ing. action – aksionallıq Ac) və nəticə (ing. rezultativlik - rezultative Rs) bildirir. Tamamlıq mövqeyində işlədilən *wife* ismi substansiallıq sinfinə aid olan keyfiyyət daşıyıcısı və obyektlik (SbQltObj) sinsemantik əlamətləri özündə birləşdirir. (Məqalədə sintaksem modellərində işlədilən sinsemantik əlamətlərin ixtisarları və onların mənaları А.М.Мухин. Функциональный синтаксис. Санкт-Петербург. Наука.1999. – 184 с. monoqrafiyasına istinad edilmişdir.)

Eyni quruluş və sintaksem modelinə malik olan atalar sözlərində mübtəda mövqeyində əksmənalı substantivləşmiş sifətlərlə ifadə olunan sintaksemlərə də rast gəlmək olur. Məsələn: Every *white* has its *black,* and every *sweet* has its *sour* (≈ Hər yaxşının bir pisi, hər şirinin bir turşusu var.) Quruluş modeli: PronInd+Adj+have+PronPoss+Adj+and+PronInd+Adj+have+PronPoss+Adj;

Sintaksem modeli: SbIndPron·SbQlt·PrPss·SbPoss·SbQlt· SbIndPron·SbQlt· PrPss· SbPss·SbQlt (ing. indefinite qeyri-müəyyən Ind; pronoun əvəzlik Pron): (ing. processual Pr: possessive mənsubiyyət Pss). Substansiallıq sinfindən keyfiyyət bildirən *white* sintaksemi leksik baxımdan əksmənalı *black* sintaksemi ilə, *sweet* sintaksemi də *sour* sintaksemi ilə qarşılaşdırma əlaqəsinə girir.

İngilis atalar sözlərində elliptik cümlə formasında təyin mövqeyini tutan əksmənalı sifətlərlə ifadə olunan sintaksemlər də qarşılaşdırma əlaqəsi vasitəsilə yaranır. Məsələn: *Great* boast, *small* roast (≈ Lovğalığı çox, qovurması az. Heç nəyi yoxdur, amma yamanca lovğalanır.) Qarşılaşdırılan sintaksemlərin kvalifikativ keyfiyyət kimi sinsemantik əlamətlərini yoxlamaq üçün bütöv cümləyə transformasiya etməklə yoxlamaq mümkündür: *Great* boast, *small* roast → The boast *is great,* the roast *is small.* Kvalifikativlik sinfindən keyfiyyət (kvalitativlik) bildirən sintaksemlər təkcə sifətlə deyil, zərflərlə də ifadə oluna bilər. Bunların əksəriyyətinə inversiya ilə yaranan atalar sözlərində rast gəlmək olur. Feillə tabelilik əlaqəsinə girən zərfliyin mövqeyində keyfiyyət (QlfQlt) mənalı sinsemantik əlaməti ilə birgə hərəkətin tərzini (ing. manner - Mn) bildirən əlaməti də aşkar olunur. Məsələn:1) *Easy* come, *easy* go; 2) *Lightly* come, *lightly* go (≈ Kələklə gələn, küləklə gedər.) Quruluş modeli: Adv+V+Adv+V;

Sintaksem modeli: QlfMnQlt·PrAc·QlfMnQlt·PrAc

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2024*
*Səh. 362-368*

Misallardan göründüyü kimi, hər bir atalar sözünün daxilində easy – easy, lightly – lightly sintaksemləri bir-biri ilə qarşılaşdırılır. "Never too *old* to learn" və "It is never too *late* to learn" (Öyrənmək heç vaxt gec deyil.) kimi ingilis atalar sözlərində kvalifikativlik (Qlf) sinfinə aid olan *old* və *late* sintaksemləri keyfiyyət və zaman (Tmp) bildirən sifətlərlə ifadə olunmaqla yanaşı "*too*" qüvvətləndirici dərəcəni bildirən sintaksem təyin mövqeyində işlənir. Bu sintaksemlərin distributiv xüsusiyyətinə görə prosessuallıq sinfindən olan hərəkət və məqsəd bildirən (PrAcFn) "to learn" sintaksemi məsdər formasında işlənir.

Elliptik cümlə formasında işlənən atalar sözlərində də kvalifikativlik (Qlf) sinfindən olan keyfiyyət (kvalitativlik), tərz ( manner Mn) və müqayisə (komparativlik) sintaksemlərə rast gəlmək olur. Məsələn:

1) *Easier* said *than* done (≈Demək asandır, əməl etmək çətin). Bu qəbildən olan atalar sözlərini bütov cümləyə transformasiya etməklə müqayisənin məzmununu daha aydın başa düşmək olur: It is *easier* said *than* done. Quruluş modeli: $Adv_{cmp}$+$V_{pp}$+than+$V_{pp}$ ; Sintaksem modeli: lfMnQltCmp·PrAcDir·PrPsvAc

2) *Better* late than never (Heç vaxt olmamaqdansa, gec olması yaxşıdır.) kvalifikativlik sinfindən kvalitativlik, tərz və müqayisə bildirən *better* sintaksemi müxtəlif quruluşlu modellərdə təzahür oluna bilər: "*It is better* late than never".

3) *Better* be *alone than in bad*/ill *company*. (Pis adamların dəstəsinə qoşulmaqdansa, tək qalmaq yaxşıdır.) elliptik cümləli atalar sözünü bütöv cümlə formasına transformasiya etməklə *alone* və *in bad/ill company* birləşməsinin qarşılaşdırılması ilə *better* sintakseminin keyfiyyət və müqayisə əlamətlərinin aşkar olunmasını yoxlamaq mümkündür: → *You'd better* be alone than in bad / ill company.

Müqayisə dərəcəli birləşmələr daxilində ingilis atalar sözləri eyni müqayisə dərəcəsindən təşkil olunmuş (*the more...the more*) və bəzən əksmənalı sifətlərdən (*the more...the less*) ibarət olub, substansiallıq sinfindən müqayisə (komparativlik) və kəmiyyət (kvantitativlik) bildirən sintaksemlər çıxış edir: 1) *The more* you have, *the more* you want (≈Malın artdıqca, tamahın da artır); 2) *The more* haste, *the less* speed (≈Tələsən təndirə düşər); 3) *The nearer* the bone, *the sweeter* the flesh (≈Ət sümüyə nə qədər yaxın olsa, bir o qədər şirin olar). Sonuncu misalda *the nearer* sintaksemi substansiallıq sinfindən səbəb (kauzallıq - cakəmiyyət və məkan (lokativlik - location) sinsemantik əlamətlərini, *the sweeter* sintaksemi isə substansiallıq sinfindən keyfiyyət (kvalitativlik) və nəticə (rezultativlik - Rs) əlamətlərini bildirir.

Müqayisə kimi sinsemantik əlamətini ifadə edən sintaksemlərə as+Adj+as +-N; as+N+so+N; not so+Adj+N model quruluşlu birləşmələrdə (konstruksiyalarda) rast gəlmək olur. Məsələn: 1) *As the tree, so the fruit* (≈On kökü üstə bitər) Sintaksem modeli: SbMat·SbMatPrt

2) The devil is *not so black as he* is painted (≈Hər şey deyildiyi qədər də çətin və ya təhlükəli deyildir). Sintaksem modeli: QlfQltNg·SbAg

Apardığımız araşdırmalar göstərir ki, formasına görə quruluş modelləri və məzmununa görə sintaksem modelləri əsasında ingilis atalar sözləri içərisində nitqdə yaranan ümumi distributiv xüsusiyyətlərinə malik olan külli miqdarda keyfiyyət və

müqayisə bildirən sintaksemlərə çox rast gəlmək olur. Eyni, yaxud oxşar quruluşda, cümlə və ya söz birləşməsi formasında olan ingilis atalar sözlərində sintaksemlərlə qarşılaşdırma əlaqəsinə girən komponentlərin funksional təhlili, linqvistik eksperiment yolu ilə müəyyən etdiyimiz transformasiyalar bir daha sübut edir ki, nitq və məntiqi təfəkkürün təzahürü, müxtəlifsistemli dillərin praktiki cəhətdən düzgün, dərindən öyrənilməsində, digər dillərlə müqayisəli tədqiqat işlərinin aparılmasında mühüm rol oynayır.

**Абдулрагимова Кенуль Эльмар кызы**

**Функциональный анализ квалитативных и компаративных синтаксем в английских пословицах**

## РЕЗЮМЕ

Термин "синтаксема" в языкознании стал применяться со второй половины 20-го века, в качестве элементарных неделимых синтаксических единиц выделяемых на основе существующих связей между компонентами предложений. В функциональном анализе учитываются содержательные и формальные особенности синтаксем в структуре предложения в позиции членов предложения, так называемых подлежащего, сказуемого, дополнения, определения и обстоятельства в английском языке.

В предлагаемой нами статье функциональный анализ проводится на материале английских пословиц, в которых встречаются квалитативные компаративные синтаксемы в позиции разных членов предложения. Структурные особенности таких синтаксем изучаются на основе структурных моделей в которых отражаются компоненты английских пословиц выраженные такими частями речи, как прилагательные или наречия и их степени сравнения являющиеся определение или именной частью сказуемого (предикатива). Содержательные особенности квалитативных и компаративных синтаксем выявляются в синтаксемных моделях в которых учитываются дистрибутивные признаки в глубинной структуре предложений.

В статье синтаксемы анализируются в рамках 3-х классов с учетом их содержания в английских пословицах: субтанциальные, процессуальные, квалификативные. Квалитативные, компаративные, стативные характерны для синтаксем, выраженные прилагательными, наречиями или же сочетаниями с предлогом. Они обьединяются в классе квалификативности. Агентивные, обьектные, прономинальные (местоименные), в основном относятся к огромному классу субстанциальности. В функциональном анализе также выявляются синсемантические признаки тех синтаксем, которые имеют дистрибуцию или сочетаемостные особенности другого класса процессуальности. В нем

обьединяются синтаксемы, обозначающие акциональность, модальность, стативность, компаративность и др.

Исследование заключается не только в структурном и синтаксемном моделировании, в нем также проверяются вышеуказанные синсемантические признаки квалитативных и компаративных синтаксем путем проведения лингвистического эксперимента как трансформации английских пословиц или их вариантов в предложения, которые используются носителями английского языка.

**Ключевые слова:** *синтаксема, квалификативность, квалитативность, компаративность, субстанциальность, процессуальность, синсемантический признак, акциональность, дистрибуция*

**Abdulrahimova Konul Elmar**

**Functional Analysis of Qualitative and Comparative Syntaxemes in English Proverbs**
**Summary**

The term “syntaxeme” began to be used in linguistics since the half of the 20th century as an elementary indivisible meaningful syntactic unit on the basis of existing relations among the components of the sentence and phrases. Functional analysis takes into consideration the content and formal characteristics of syntaxemes being in the positions of the subject, predicate, object, attribute and adverbial modifiers.

In this article the author carries out the functional analysis of qualitative and comparative in the structure of English proverbs. Syntaxemes involve synsemantic features within the framework of 3 main vast classes as substantivity, processuality and qualificativeness. Structural properties of syntaxemes are studied on the basis of structure models reflecting such parts of speech as adjectives and adverbs in the positive, comparative and superlative degrees function in the position of an attribute to the noun or as a predicative. Qualitative and comparative syntaxemes acquire synsemantic features of quality and comparison. Distributive characteristics of qualificative and qualitative syntaxemes are revealed in syntaxemic models in the deep structure of the sentence. The synsemantic features of qualitativeness, comparativeness, stativeness are typical of syntaxemes expressed by adjectives, adverbs or prepositional phrases. There are pronominal synsemantic features that belong to the class of substantivity expressed by nouns, substantivized adjectives with prepositions or without them. The synsemantic features having distribution of combinability with another class of processuality are also revealed in the functional

analysis.The syntaxemes denoting actions, modality, stativeness, comparativeness, etc are expressed by notional verbs or adjectives and nouns with auxiliary verbs.

The research is carried out not only by modeling the structure and syntaxemes in English proverbs, but also the above-mentioned synsemantic features of qualitative and comparative syntaxemes are tested by applying a linguistic experiment, such as transformation of English proverbs into the sentence or the variants of the proverb into the complete sentence.

**Keywords:** *syntaxeme, qualificativeness, qualitativeness, comparative, substantivity, synsemantic features, processuality, action, distribution.*

**Redaksiyaya daxil olma tarixi: 03.06.2024**
**Çapa qəbul olunma tarixi: 28.06.2024**
**Rəyçi: dosent, f.f.d. Şəfiyeva Ülkər Nəriman qızı**
**tərəfindən çapa tövsiyə olunmuşdur**